Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Lənkəran Dövlət Universiteti

Təsdiq edirəm
Tədrisin təşkili və təlim
texnologiyaları üzrə prorektor v.i.e:
________dos. Zaur Məmmədov
"26" "XII" 2024-cü il

Fənn sillabusu

İxtisas: 050407 - Marketinq
Fakültə: İqtisadiyyat və idarəetmə
Kafedra: Maliyyə idarəetməsi və audit

**I.Fənn haqqında məlumat:**

Fənnin adı: S/f (Sahibkarlıq maliyyəsi) (Fənn müəllimi tərəfindən tərtib olunmuş "26" "XII" 2024-cü il tarixli 07 saylı protokolu ilə təsdiq edilən işçi tədris proqramı).
Kodu: İPFS-B08
Tədris ili: V (2024/2025). Semestr: II
Tədris yükü: Auditoriya saatı – 14 saat (10 saat mühazirə, 4 seminar).
Tədris forması: Qiyabi
Tədris dili: Azərbaycan dili
AKTS üzrə kredit: 4
Auditoriya №:
Saat:

**II.Müəllim haqqında məlumat:**

Adı, soyadı, elmi dərəcəsi və elmi adı: Bədəlov Əlixan Mehman oğlu, iqt.e.n, dos.
Məsləhət günləri: IV-V gün saat $16^{00}$-$17^{00}$
E-mail ünvanı: alixan.badalov@mail.ru
Kafedranın ünvanı: Lənkəran ş., Füzuli küç.,170-a

**III.Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

Əsas


1. V.Z.Zeynalov Maliyyənin əsasları. Bakı, 2008
2. N. Novruzov, X. Hüseynov Maliyyə. Dərslik. Bakı, 2007
3. Niftullayev V. M. "Sahibkarlığın əsasları" - Bakı, "Zaman nəşriyyatı" – 2002
4. Ирина Юрзинова, Валерий Незамайкин Финансовый менеджмент. Учебник. Издатель ЛитРес, 2022
5. Гуреев П.М. Венчурное предпринимательство. (Бакалавриат). Учебник. Москова, 2023
6. Лернер Дж., Хардимон Ф., Лимон Э. Венчурный капитал, прямые инвестиции и финансирование предпринимательства. «Издательство Института Гайдара». 2016
7. Тактаров Г. А., Григорьева Е. М.. Финансовая среда предпринимательства и предпринимательские риски. Учеб. Пособие. Москва, 2014
8. И. И. Родионов, А. С. Семенов. – Санкт-Петербург : Алетейя, 2013. – 384 с.
9. Леонтьев, В. Е. Корпоративные финансы. Учебник для вузов. Москва : Издательство Юрайт, 2023


**IV.Prerekvizitlər:** Fənnin tədrisi üçün öncədən İqtisadiyyata giriş, Mikroiqtisadiyyat və Makroiqtisadiyyat fənninin tədrisi vacibdir.

**V. Korekvizitlər:** Bu fənnin tədrisi ilə eyni vaxtda başqa fənnlərin də tədris olunmasına zərurət yoxdur.

**VI.Fənnin təsviri və məqsədi:** Maliyyə sahibkarlığı sahibkarlıq fəaliyyətinin ixtisaslaşdırılmış sahəsidir, onun xarakterik xüsusiyyəti alqı-satqı predmetinin qiymətli kağızlar (səhmlər, istiqrazlar və s.), valyuta dəyərləri və milli pul olmasıdır. Sahibkarlıq fəaliyyətinin əsas məqsədi sosial tələbatların maksimum dərəcədə ödənilməsi nəticəsində mənfəət əldə etməkdir. Sahibkarlıq maliyyəsi bu istiqamətdə fəaliyyətin maliyyələşdirilməsi hesab edilir. Beləliklə müasir dövrdə sahibkarlığın inkişafında əsas məsələlərdən biri onun maliyyələşdirilməsidir. Sahibkarlıq fəaliyyətinin maliyyə mənbəyinə müəssisənin sahiblərinə məxsus olan hər şey - mənfəət (dövriyyədən yayındırıla bilər və ya biznesdə qala bilər), sahibinin şəxsi vəsaitləri, habelə şirkətin əmlakı - amortizasiya xərcləri, əmək haqqı fondu, müəssisənin aktivləri daxildir. Müasir dövrdə sahibkarklığın maliyyələşdirmə mənbələrindən biri də vençur kapitalıdır. Sahibkarlıq maliyyəsi kifayət qədər nəzəri və mürəkkəb proses olmaqla yanaşı, eyni zamanda da müəssisənin dayanıqlı fəaliyyəti baxımından kifayət qədər aktual prosesdir. Bu baxımdan da hər bir sahibkarlıq müəssisəsi öz fəaliyyətində mövcud maliyyə probleminin müəyyən olunması, həmin problemlərin təsirlərini aradan qaldırmaq, bir sözlə müəssisələrin maliyyə təminatı prosesi öz aktuallığını qoruyaraq saxlamaqdadır.

Sahibkarlıq maliyyəsi fənnininin öyrənilməsi məqsədi iqtisadiyyatın ayrı-ayrı sahələrində sahibkarlıq subyektlərində baş verən maliyyə problemlərinin yaranma aspektlərinin təhlil edilməsi, onların səbəbləri və ifadə formalarının, maliyyə sabitliyinin pozulmasının səbəb olan hadisələrin xarakteristikasına sistemli yanaşma, müasir şəraitdə maliyyələşmənin xüsusiyyətləri metodikalarının öyrənilməsini ehtiva edir, hazırda onların dərindən öyrənilməsi daha çox aktuallıq kəsb edir. Ona görə də Sahibkarlıq maliyyəsi fənnininin öyrənilməsi nəzəri və praktik əhəmiyyət kəsb edir.

Scanned with CamScanner

**VII.Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.
**VIII.Qiymətləndirmə:** Tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Bundan 50 balı tələbə semestr ərzində, 50 balı isə imtahanda toplayır. Semestr ərzində toplanan 50 bala aşağıdakılar aiddir: 20 bal seminar və laboratoriya dərslərində fəaliyyətinə görə və 30 bal kollokviumların nəticələrinə görə.
Qiymətləndirmə zamanı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzərə alınır.
İmtahan biletinə bir qayda olaraq fənni əhatə edən 5 sual daxil edilir.
Qiymət meyarları aşağıdakılardır:
- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir
- 6 bal - tələbənin cavabı əsasən düzgündür.
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var.
- 0 bal - suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.
Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:** Tələbə Universitetin daxili nizam – intizam qaydalarını pozduqda əsasnamədə nəzərdə tutulan qaydada tədbir görüləcək.
**X. Təqvim mövzu planı:** 14 saat (10 saat mühazirə, 4 seminar).

| № | Keçirilən mühazirə, seminar, məşğələ, laboratoriya və sərbəst mövzuların məzmunu | Məşğələ | | Seminar | |
|---|---|---|---|---|---|
| | | Saat | Tarix | Saat | Tarix |
| 1. | Mövzu. Sahibkarlıq maliyyəsi fənninin predmeti və sahibkarlıq müəssisələrinin maliyyə siyasəti<br>Plan:<br>1. Fənnin predmeti, mahiyyəti və öyrənilməsinin zəruriliyi<br>2. "Sahibkar", "sahibkarlıq" və "maliyyə" anlayışı<br>3. Sahibkarlıq subyektlərinin maliyyələşmə mənbələri<br>4. Maliyyənin mahiyyəti funksiyaları və zəruriliyi<br>5. Sahibkarlıq maliyyəsinin resursları<br>6. Maliyyə siyasətinin mahiyyəti<br>7. Sahibkarlıq müəssisələrinin maliyyə siyasəti və onun hazırlanması<br>8. Sahibkarlıq müəssisələrinin fəaliyyətinə maliyyə nəzarəti<br>9.Sahibkarlıq maliyyə nəzarətinin növləri, formaları və metodları<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 2 | | 2 | |
| 2. | Mövzu. Müəssisələrdə sahibkarlıq maliyyəsinin təşkili, pul axınlarının idarə edilməsi və inflyasiya şəraitində maliyyə qərarlarının qəbul edilməsi<br>Plan:<br>1. Müəssisələrdə sahibkarlıq maliyyəsinin təşkili prinsipləri<br>2. Sahibkarlıq maliyyəsinin gəlir və xərcləri<br>3. Sahibkarlıq maliyyəsinin mənfəət və rentabelliyi<br>4. Sahibkarlıq maliyyəsinin dövriyyə vəsaitləri<br>5. Pulun mahiyyəti, növləri və funksiyaları<br>6. Müəssisənin kompleks idarəetməsinin elementlərindən biri kimi pul axınlarının idarə edilməsi<br>7. Pul axınlarının idarə edilməsinin təşkili və pul axınlarının | 2 | | | |

Scanned with CamScanner

| | | | | | |
|---|---|---|---|---|---|
| | proqnozlaşdırılması<br>8. İnflyasiya anlayışı, onun səbəb və amilləri<br>9. İnflyasiyanın nəticələri və inflyasiya ilə mübarizə üsulları<br>10. İnflyasiya şəraitində maliyyə qərarlarının qəbul edilməsi<br>Mənbə: [Mühazirə materialları, 1-9] | | | | |
| 3. | Mövzu: Sahibkarlıq maliyyəsində kredit və sığorta münasibətləri<br>Plan:<br>1. Kreditin mahiyyəti, quruluşu, rolu, kredit münasibətlərinin obyekti və subyektləri<br>2. Kreditin funksiyaları, prinsipləri və formaları<br>3. Sığortanın iqtisadi mahiyyəti<br>4. Sığortanın rolu, zəruriliyi və funksiyaları<br>5. Sığortanın formaları və növləri<br>Mənbə: [Mühazirə materialları, 1; 2; 3; 4] | 2 | | 2 | |
| 4. | Mövzu: Sahibkarlıq maliyyəsində qiymətli kağızlar<br>Plan:<br>1. Qiymətli kağızların müxtəlifliyi, onların təsnifləşdirilməsi və qruplaşdırılması<br>2. Qiymətli kağızların müxtəlif meyarlar üzrə təsnifləşdirilməsi, funksiyaları, xüsusiyyətləri və əlamətləri<br>3. Səhmlərin təsnifatı və növləri<br>4. İstiqrazların mahiyyəti və təsnifatı<br>5. Veksellərin təsnifatı və funksiyaları<br>6. Çek, onun növləri və rekvizitləri<br>7. Bank sertifikatının mahiyyəti və növləri<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 2 | | | |
| 5. | Mövzu: Sahibkarlıq maliyyəsində investisiya, vençur kapitalı və risklər<br>Plan:<br>1. İnvestisiyanın mahiyyəti, fəaliyyətinin mənbələri və təsnifatı<br>2. İnvestisiyanın əsas növləri və mülkiyyət baxımından investisiya resurslarının forması<br>3. İnvestisiya qoyuluşunda başlıca məqsəd və investisya fəaliyyətinin obyekt və subyektləri<br>4. İnvestisiya layihələrinin və proqramlarının reallaşmasına olan resursların cəlb edilməsi<br>5. İnvestisiya maliyyələşdirilməsinin daxili və xarici mənbələri<br>6. İnvestisiya fəaliyyətinin maliyyələşmə metodları<br>7.Sahibkarlıq maliyyəsində vençur kapitalı və vençur maliyyələşdirməsinin başlıca məqsədi<br>8.Bazar iqtisadiyyatı şəraitində maliyyə risklərinin təsnifatı<br>9.Maliyyə risklərinin aşağı salınması yolları<br>Mənbə: [Mühazirə materialları, 1-9] | 2 | | | |
| X | Cəmi: | 10 | | 4 | |

**XI. Fənn üzrə tələblər:** İqtisadiyyat yönümlü ixtisaslarda Sahibkarlıq maliyyəsi fənninin mühüm rolu vardır. Fənnin tədrisini başa vurduqdan sonra tələbə sahibkarlıq fəaliyyətində maliyyə münasibətlərinin iqtisadi mahiyyətinin öyrənilməsi, burada maliyyənin idarə edilməsinin əsas məsələlərini, vençur kapitalı və vençur sahibkarlığı barədə müxtəlif informasiyaların əldə olunması və istifadəsini, vençur maliyyələşdirilməsi və onun xüsusiyyətləri və s. bu kimi nəzəri və praktik bilikləri öyrənməlidir.

**XII. Fənn üzrə təlimin nəticələri:**

- Sahibkarlıq subyektlərində maliyyənin idarə edilməsinin praktiki yollarını mənimsəyir;
- Sahibkarlıq maliyyəsinin idarə edilməsinin nəzəri əsaslarını öyrənir;
- Maliyyənin və vençur kapitalının sahibkarlıq fəaliyyətində yeri, rolu və mövqeyini öyrənir;
- Vençur maliyyələşdirilməsi, xüsusiyyətləri, zəruriliyi, vəzifələri, risklərin meydana gəlmə səbəblərini təhlil etməyi öyrənir;
- Sahibkarlıq maliyyəsi siyasəti, kapital amili və aktivlərin qiymətləndirilməsi ilə bağlı biliklərə yiyələnir;
- Müəssisənin maliyyə resursları sistemi və maliyyə mexanizmini mənimsəyir;
- Müstəqil təhlil etmə bacarığına yiyələnir.

**XIII. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

Scanned with CamScanner

**XIV. Kollokvium sualları:**

1. Fənnin predmeti, mahiyyəti və öyrənilməsinin zəruriliyi
2. Sahibkarlıq subyektlərinin maliyyələşmə mənbələri
3. Maliyyənin mahiyyəti funksiyaları və zəruriliyi
4. Sahibkarlıq maliyyəsinin resursları
5. Sahibkarlıq müəssisələrinin maliyyə siyasəti və onun hazırlanması
6. Müəssisələrdə sahibkarlıq maliyyəsinin təşkili prinsipləri
7. Müəssisənin kompleks idarəetməsinin elementlərindən biri kimi pul axınlarının idarə edilməsi
8. Kreditin funksiyaları, prinsipləri və formaları
9. Qiymətli kağızların müxtəlifliyi, onların təsnifləşdirilməsi və qruplaşdırılması
10. Sahibkarlıq maliyyəsində vençur kapitalı və vençur maliyyələşdirməsinin başlıca məqsədi

**XV. İmtahan sualları:**

1. Fənnin predmeti, mahiyyəti və öyrənilməsinin zəruriliyi
2. "Sahibkar", "sahibkarlıq" və "maliyyə" anlayışı
3. Sahibkarlıq subyektlərinin maliyyələşmə mənbələri
4. Maliyyənin mahiyyəti funksiyaları və zəruriliyi
5. Sahibkarlıq maliyyəsinin resursları
6. Maliyyə siyasətinin mahiyyəti
7. Sahibkarlıq müəssisələrinin maliyyə siyasəti və onun hazırlanması
8. Sahibkarlıq müəssisələrinin fəaliyyətinə maliyyə nəzarəti
9. Sahibkarlıq maliyyə nəzarətinin növləri, formaları və metodları
10. Müəssisələrdə sahibkarlıq maliyyəsinin təşkili prinsipləri
11. Sahibkarlıq maliyyəsinin gəlir və xərcləri
12. Sahibkarlıq maliyyəsinin mənfəət və rentabelliyi
13. Sahibkarlıq maliyyəsinin dövriyyə vəsaitləri
14. Pulun mahiyyəti, növləri və funksiyaları
15. Müəssisənin kompleks idarəetməsinin elementlərindən biri kimi pul axınlarının idarə edilməsi
16. Pul axınlarının idarə edilməsinin təşkili və pul axınlarının proqnozlaşdırılması
17. İnflyasiya anlayışı, onun səbəb və amilləri
18. İnflyasiyanın nəticələri və inflyasiya ilə mübarizə üsulları
19. İnflyasiya şəraitində maliyyə qərarlarının qəbul edilməsi
20. Kreditin mahiyyəti, quruluşu, rolu, kredit münasibətlərinin obyekti və subyektləri
21. Kreditin funksiyaları, prinsipləri və formaları
22. Sığortanın iqtisadi mahiyyəti
23. Sığortanın rolu, zəruriliyi və funksiyaları
24. Sığortanın formaları və növləri
25. Qiymətli kağızların müxtəlifliyi, onların təsnifləşdirilməsi və qruplaşdırılması
26. Qiymətli kağızların müxtəlif meyarlar üzrə təsnifləşdirilməsi, funksiyaları, xüsusiyyətləri və əlamətləri
27. Səhmlərin təsnifatı və növləri
28. İstiqrazların mahiyyəti və təsnifatı
29. Veksellərin təsnifatı və funksiyaları
30. Çek, onun növləri və rekvizitləri
31. Bank sertifikatının mahiyyəti və növləri
32. İnvestisiyanın mahiyyəti, fəaliyyətinin mənbələri və təsnifatı
33. İnvestisiyanın əsas növləri və mülkiyyət baxımından investisiya resurslarının forması
34. İnvestisiya qoyuluşunda başlıca məqsəd və investisya fəaliyyətinin obyekt və subyektləri
35. İnvestisiya layihələrinin və proqramlarının reallaşmasına olan resursların cəlb edilməsi
36. İnvestisiya maliyyələşdirilməsinin daxili və xarici mənbələri
37. İnvestisiya fəaliyyətinin maliyyələşmə metodları
38. Sahibkarlıq maliyyəsində vençur kapitalı və vençur maliyyələşdirməsinin başlıca məqsədi
39. Bazar iqtisadiyyatı şəraitində maliyyə risklərinin təsnifatı
40. Maliyyə risklərinin aşağı salınması yolları

Sillabus "Maliyyə idarəetməsi və audit" kafedrasının "26" "XII" 2024-cü il tarixli (07 saylı protokol) iclasında təsdiq olunmuşdur.

Kafedra müdiri: dos. Əlixan Bədəlov

Fənn müəllimi: dos. Əlixan Bədəlov

Scanned with CamScanner